# AZƏRBAYCANDA XÜSUSİ MÜHAFİZƏ OLUNAN TƏBİƏT ƏRAZİLƏRİNİN YARADILMASI SİYASƏTİ

**Solmaz Bayramova**

*AR ETSN Ətraf mühitin və təbii sərvətlərin idarə edilməsi şöbəsi, Bakı*
*solmaz.memmedova@eco.gov.az*

Son illərdə dünya miqyasında iqtisadiyyatın və kənd təsərrüfatının sürətli inkişafı insan fəaliyyətinin ətraf mühitə mənfi təsirinin artması və təbii sərvətlərin həddindən artıq istismarı ilə nəticələnmişdir. Ekoloji tarazlığın qorunub saxlanması, təbii ehtiyatlardan rasional istifadə, su, torpaq və atmosfer havasının çirklənmədən mühafizə edilməsi ümumbəşəri problemə çevrilmişdir. Dünyada baş verən qlobal ekoloji və geoloji dəyişikliklər şəraitində bioloji müxtəlifliyin qorunması sahəsində görülən işlər mühüm əhəmiyyət daşıyır.

Biomüxtəlifliyin qorunub saxlanılmasında, nadir və nəsli kəsilməkdə olan bitki və heyvan növlərinin mühafizəsinin təşkilində, təbiətin kompleks şəkildə saxlanılmasında xüsusi mühafizə olunan təbiət ərazilərinin rolu böyükdür. Məhz xüsusi mühafizə olunan təbiət ərazilərinin fəaliyyəti nəticəsində nadir və nəsli kəsilməkdə olan fauna və flora növlərinin mühafizəsi, füsunkar estetik gözəlliyə malik ərazilərin antropogen təsirlərdən kənar saxlanılması və onların tam şəkildə gələcək nəsillərə qorunub çatdırılması mümkün olur.

Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunub saxlanlıması istiqamətində ən mühüm fəaliyyətlərdən hesab edilən xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması ənənələri qədim dövrlərə gedib çıxır.

Belə ki, Azərbaycanda hal-hazırda Eldar şamı Dövlət Təbiət Qoruğu kimi fəaliyyət göstərən qorunan ərazi çar Rusiyasının, indiki Göygöl, Qızılağac milli parkları və Zaqatala Dövlət Təbiət Qoruğu isə keçmiş SSRİ-nin ən qədim xüsusi mühafizə olunan təbiət ərazilərindən hesab olunur. Belə ki, 1910-cu ildə 3,5 min hektar sahədə yaradılmış Eldar şamı Botaniki Yasaqlığı nəinki Azərbaycanın, eləcə də Cənubi Qafqazın ilk xüsusi mühafizə olunan təbiət ərazisi hesab edilir.

Azərbaycan müstəqillik qazandıqdan sonra ətraf mühitin mühafizəsi sahəsində dövlət siyasətinin əsası məhz Ümummilli Liderimiz Heydər Əliyevin prezidentliyi dövründə formalaşmağa başlamışdır. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə respublikada ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, ölkədəki ekoloji vəziyyət daima diqqət mərkəzində olmuşdur. Təsadüfi deyildir ki, məhz Ümummilli Liderimizin 1969-1982 və 1993-2003-cü illərdə respublikamıza rəhbərlik etdiyi dövrlərdə ekologiya və ətraf mühitin mühafizəsi sahəsində mühüm qanunlar və qərarlar qəbul edilmiş, bu sahədə çox böyük dəyişikliklər həyata keçirilmişdir.

Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasında bioloji nüxtəlifliyin mühafizəsi, o cümlədən nadir və nəsli kəsilməkdə olan flora və faunanın qorunub saxlanılması və artırılması sahəsində məqsədyönlü siyasəti nəticəsində Pirqulu (1968) (Şahdağ Milli Parkının tərkibinə daxil edilmişdir), Şirvan

(1969), Bəsitçay (1974), Ağgöl (1978) (sonradan Ağgöl Milli Parkı (2003)), İsmayıllı (1981) (Şahdağ Milli Parkının tərkibinə daxil edilmişdir), Qarayazı (1978) və s. dövlət təbiət qoruqları, İsmayıllı (1969), Qubadlı (1969), Zuvand (1969), Ordubad (1969), Kiçik Qızılağac (1978) və Daşaltı (1981) dövlət təbiət yasaqlıqları yaradılmışdır.

Azərbaycanda milli park statuslu qorunan ərazilərin təşkil olunmasına 2003-cü ildən başlanılmış, ilk milli parklar – Həsən Əliyev adına Zəngəzur, Ağgöl və Şirvan Milli Parkları həmin ildə yaradılmışdır. Ölkə tarixində ilk milli parkların yaradılması turizmin tərkib hissəsi olan ekoturizm üçün daha münasib şərait yaratmaq, təbii-coğrafi mühiti qorumaq və yaxşılaşdırmaq məqsədi daşımaqla öz növbəsində təbiət komplekslərinin qorunmasında mühüm amil kimi çıxış edir.

Azərbaycanda Ulu Öndər Heydər Əliyevin ətraf mühitin mühafizəsi sahəsində müəllifi olduğu, indiki və gələcək nəsillərin ehtiyaclarının təmin edilməsi naminə mövcud ekoloji sistemlərin qorunması və təbii ehtiyatlardan səmərəli istifadə edilməsi məqsədilə davamlı inkişafın təmin edilməsinə yönəlmiş ekoloji siyasəti bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir.

Son 21 ildə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi ölkə ərazisinin 4,5 faizindən 10,3 faizinə qədər artırılmışdır. 2003-2024-cü illərdə aparılmış işlər nəticəsində hazırda ölkəmizdə 893 min hektar sahəni əhatə edən mühafizə olunan təbiət əraziləri fəaliyyət göstərir. Bunlardan 10-u milli park, 10-u dövlət təbiət qoruğu, 24-ü dövlət təbiət yasaqlığıdır. Ümumilikdə, xüsusi mühafizə olunan təbiət əraziləri ölkə ərazisinin 10,31%-ni, ayrılıqda milli parklar ölkə ərazisinin 4,87%, dövlət təbiət qoruqları 1,39%, dövlət təbiət yasaqlıqları isə 4,05%-ni təşkil edir.

Bioloji müxtəlifliyin qorunması vasitəsilə insanların sosial rifahının yaxşılaşdırılması və təbiətin insanlara verdiyi ekosistem xidmətlərindən davamlı və dayanıqlı istifadə edilməsi məqsədilə respublikamızda Cənubi Qafqazda bir ilk olan – Böyük Qafqazın Azərbaycan hissəsində Biosfer rezervatının yaradılması işlərinə başlanmışdır. Biosfer qoruğunun yaradılması ölkəmizdə regionların sosial-iqtisadi inkişafı, yerli əhalinin sosial rifahının yaxşılaşdırılması, məşğulluğun artırılması, ekoloji turizmin stimullaşdırılması ilə yanaşı, bioloji müxtəlifliyin qorunub saxlanılmasına şərait yaradacaqdır.

Azərbaycanda ilk dəfə ölkəmizin Qlobal Geoparklar Şəbəkəsinə qoşulması məqsədilə yeni növ xüsusi mühafizə rejimli ərazilərin – geoparkların yaradılması istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Xəzər dənizində yerləşən adalarda mövcud olan bəzi palçıq vulkanlarına geopark statusu verilməsi ilə bağlı təkliflər hazırlanmışdır. Bununla əlaqədar, Azərbaycan Respublikasının "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Qanununa müvafiq dəyişikliklər edilmişdir.

Bundan əlavə, Qanıx (Alazan) çayı vadisini, Axar-baxar dağ silsiləsini, Samux Ovçuluq Təsərrüfatının və Qax Dövlət Təbiət Yasaqlığının bir hissəsini əhatə etməklə yeni milli parkın yaradılması, İlisu Dövlət Təbiət Qoruğu və onun ətraf əraziləri daxil edilməklə İlisu Milli Parkının yaradılması ilə əlaqədar tədbirlər həyata keçirilir.

2023-cü il sentyabr ayında UNESCO-nun Ümumdünya İrs Komitəsinin Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən 45-ci sessiyasında relikt və endemik növlərlə zəngin unikal təbii meşələri ilə Cənubi Qafqazda məşhur olan Hirkan meşələrinin UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi barədə qərar qəbul edilmişdir.

Ətraf mühitin mühafizəsi, ekoloji problemlərin həlli, eyni zamanda xüsusi mühafizə olunan təbiət ərazilərinin təşkilində əldə olunan uğurlar ölkə rəhbərinin təbiətimizə diqqət və qayğısının göstəricisidir. Ölkəmizdə həyata keçirilən uğurlu islahatlar, Ölkə Başçısının sosial-iqtisadi inkişaf sahəsində müəyyən olunmuş müvəffəqiyyətli siyasəti nəticəsində ekoloji durumun sağlamlaşdırılması və təbii sərvətlərdən səmərəli istifadə edilməsinə bundan sonra da nail olunacaqdır.